# MƏRKƏZİN FƏALİYYƏT İSTİQAMƏTİ və XİDMƏTİ AXTARIŞ İTLƏRİNİN GÖMRÜK YOXLAMASININ HƏYATA KEÇİRİLMƏSİNDƏ TƏTBİQİNİN MÜHÜM ROLU

Mərkəzin yaradılmasında məqsəd, Mərkəzin və digər gömrük orqanlarının kinoloqlarının hazırlığının və peşə keyfiyyətlərinin təkmilləşdirilməsinin təşkili, gömrük orqanlarında kinoloji sahə üzrə kadrların seçilməsi və yerləşdirilməsində iştirak etmək, tədris prosesinə metodik rəhbərliyi həyata keçirmək, kinoloji xidmətin komplektləşdirilməsi məqsədilə xidməti itlərin seçilməsi, alınması və artırılması, onların cins tərkibinin və iş keyfiyyətlərinin yaxşılaşdırılması, kinoloji fəaliyyətin təşkili, inkişafı və təminatı məsələlərində gömrük orqanlarının struktur bölmələri və digər ölkə daxili və xarici dövlət qurumlarınının kinoloji xidmətlərinin kinoloqları ilə birgə əməkdaşlıq, narkotik vasitələrin, odlu silahların, partlayıcı, psixotrop və digər fərdi iyə malik maddələrin aşkar edilməsi məqsədi ilə kinoloqların xidməti itlərlə gömrük nəzarətinin keçirilməsində iştirakını təmin etməkdir.

Gömrük təcrübəsində gömrük sərhəddindən keçən yük maşınların, minik maşınların, əl yüklərin və baqajın dəqiq yoxlanmasını təmin etmək üçün vizual baxışdan əlavə müxtəlif təyinatlı texniki vasitələrin geniş çeşidindən istifadə edilir.

Lakin bəzən öz texniki xarakteristikasına görə ən müasir texniki vasitələr belə gömrük nəzarətinin müvafiq keyfiyyətini təmin edə bilmir.

Təcrübə göstərir ki, gömrük sərhəddindən keçən nəqliyyat vasitələrində, əl yüklərində və yaxud digər yerlərdə mümkün olan istənilən növ xəlvət yerləri axtarmaq və aşkar etmənin ən yaxşı vasitələrindən biri də bu məqsədlər üçün xüsusi olaraq hazırlanmış xidməti itlərdir.

Axtarış qabiliyyəti olan universal iy bilmə analizatorlarının sayəsində onlar nadir axtarış-diaqnostika imkanlarına malikdirlər. O cümlədən, xidmət itlərində davranışın element-düşüncə forması və özünəməxsus “ön xəbərdarlıq sistemi” mövcuddur. Bu qabiliyyət heyvanın diqqətinin vaxtında təmərküzləşməsinə və bir yerə cəm olunmasına, ətraf mühitdə baş verən dəyişiklikləri tez aşkar etməsinə və aldığı təlim çərçivəsində müvafiq cavab verməsinə imkan verir. Bu gün elmin əlində elə bir cihaz yoxdur ki, onun taktiki və texniki göstəriciləri itin olfaktor imkanlarına uyğun gelsin və üstəlik də iyin izləmə detektoru kimi iti əvəz edə bilsin.